# Ölkə iqtisadiyyatında bu il yüksək artım proqnozlaşdırılır

Azərbaycanın dinamik inkişafı dünyada mövcud qeyri-sabit siyasi şəraitə, koronavirus pandemiyasının yaratdığı böhranlı vəziyyətə baxmayaraq, davam edib. Bu, cari ilin yanvar-fevral ayları üzrə iqtisadi göstəricilərdə də öz ifadəsini tapıb. Belə ki, bu ilin ilk iki ayında respublikada 19 milyard 175,2 milyon manatlıq və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 6,7 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bundan başqa, ötən müddətdə əsas kapitala 1 milyard 339,7 milyon manat məbləğində vəsait yönəldilib. Bu dövr ərzində neft-qaz sektoruna yatırılan investisiyaların həcmi 11,2 faiz azalsa da, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 12,1 faiz artıb.

Yeri gəlmişkən, istifadə edilən vəsaitin 984,3 milyon manatı və ya 73,5 faizi məhsul istehsalı sahələrinə, 240,6 milyon manatı (17,9 faizi) xidmət sahələrinə, 114,8 milyon manatı (8,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Ötən iki ay ərzində əsas kapitala yönəldilən vəsaitlərin 779,5 milyon manatını və ya 58,2 faizini daxili vəsaitlər təşkil edib. Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, əsas kapitala yönəldilən vəsaitlərin 815,9 milyon manatı və ya 60,9 faizi bilavasitə tikinti-quraşdırma layihələrinin yerinə yetirilməsinə sərf olunub. İnşaat işlərinin belə genişmiqyaslı xarakter alması Prezident İlham

***Prezident İlham Əliyev son illərdə sosial-iqtisadi çağırışları nəzərə alaraq ölkədə islahatları da sürətləndirib. Bu islahatlar məzmununa görə məqsədyönlü və konkret strateji hədəfə hesablanıb. Genişmiqyaslı yenilənmələr respublikada yüksək dayanıqlı və inklüziv iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşviqi üçün əlverişli zəmin yaradıb.***

Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən əsaslı iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində reallaşdırılan ardıcıl tədbirlər nəticəsində iqtisadiyyatın neft-qaz amilindən asılılığının getdikcə azalması ilə bağlı olub. Yeri gəlmişkən, son illər dünyaya özünün yeni inkişaf modelini təqdim etməyi bacaran Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilbəil sürətlənib. Bu da respublikamızda qeyri-neft sahələrinin inkişafına müsbət təsir göstərib.

Cari ilin yanvar-fevral aylarında qeyri-neft sektorunda əsas kapitala yönəldilən investisiyaların həcmində müsbət dinamika qeydə alınıb. Bu müddətdə sərmayələrin artım tempi 12,1 faiz təşkil edib. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti istisna olmaqla, özəl mülkiyyətli müəssisələrdə investisiyaların artım tempi isə 10,7 faiz olub.

Həmin dövrdə qeyri-neft sektorunun özəl bölməsi üzrə daxilolmalar isə 44,9 faiz artaraq 1 milyard 76,7 milyon manat təşkil edib. Neft sektorundakı subpodratçıların vergiləri istisna olmaqla, özəl sektordan vergi daxilolmaları 51,9 faiz artaraq 939,8 milyon manata çatıb.

İqtisadi sahədə əldə edilən iqtisadi uğurlar ilin uğurlu göstəricilərlə yekunlaşacağına



əminlik yaradır. Bu, "Deloitte" şirkətinin hesabatında da öz ifadəsini tapıb. Hesabatda ilin sonuna Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) istehsalı həcminin 102 milyard manata çatacağının gözlənildiyi bildirilib.

Sənədə əsasən, 2022-ci ildə Azərbaycanda ÜDM-nin real artımın 4,2 faiz səviyyəsində reallaşması proqnozlaşdırılır: "İqtisadiyyatın canlanması 2021-ci ilin ikinci yarısından sürətlənib. 2022-2026-cı illərdə Azərbaycanda iqtisadi böyümə davamlı özəl istehlakın və investisiya artımı hesabına olacaq".

Azərbaycan hökuməti 2022-ci il üçün ÜDM-nin artımını 3,9 faiz, 2023-cü il üçün 5,1 faiz səviyyəsində proqnozlaşdırır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2021-ci ildə Azərbaycanda 92 milyard 857,7 milyon manatlıq və yaxud 2020-ci illə müqayisədə 5,6 faiz çox ÜDM istehsal olunub. Belə ki, ötən il iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 7,2 faiz, neft-qaz sektorunda isə 1,8 faiz artıb.

ÜDM istehsalının 42,5 faizi sənaye, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,9 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 17,2 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 8,4 faizini təşkil edib.

İl ərzində ölkədə adambaşına düşən ÜDM-in dəyəri isə 27,6 faiz artaraq 9 269 manat olub.

Ölkədə həyata keçirilən islahatların nəticəsidir ki, bu gün respublikada sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı həm beynəlxalq maliyyə qurumları, həm də böyük şirkətlər, investorlar tərəfindən yüksək dəyərləndirilib. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhranı şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 1 aprel.- S.9.